*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2024*
*Səh. 90-95*
https://doi.org/10.62837/2024.8.90

**ZÜMRÜD MƏMMƏDOVA**
**XATIRƏ MUSAYEVA**
**VƏFA CƏFƏROVA**
Heydər Əliyev adına Hərbi İnstitut
Polad Həşimov 18
zumrudmammadova@mail.ru

# İNGİLİS DİLİNİN TƏDRİSİNİN ƏHƏMİYYƏTİ VƏ TƏHSİLDƏKI ROLU

**XÜLASƏ**

Dil informasiya mübadiləsi, mədəni dəyərlərin öyrənilməsi və digər xalqlara çatırılması üçün bir vasitədir. "Beyəlxalq status dərəcəsinə gəlib çatmış ingilis dilinin tarixi palıd kökləri kimi tarixin dərinliyinə rişə atmışdır." **(1, 23)** Tarixi mənbələrdə ingilis dilinə dair bu faktlara rast gəlirik: İngilis dilinin mənşəyi Şimal-Qərbi Almaniya və Hollandiyadan gəlmişdir. İngilis dili bu bölgələrdə yaşayan insanlar tərəfindən proto-hind-Avropa dilində danışıldığı qeyd olunur. Bu dil isə müasir dövrə məlum deyil. Müasir ingilis dili ilk dəfə 14-cü əsrdə İngiltərədə istifadə olunmağa başlayaraq 1550-ci illərə qədər öz inkişafını davam etdirmişdir. İngilis dilinə ən yaxın dillər isə holland və Qərbi Flamand dilləridir.İngilis dili 67 ölkədə və Honq Konqda 27 qeyri-suveren ölkədə rəsmi dildir. İngilis dili 339 milyon insan tərəfindən birinci dil kimi, 603 milyon tərəfindən isə ikinci dil kimi danışılır. İngilis dilinin təkamülünün əsas dövrləri Köhnə İngilis, Orta İngilis, Erkən Müasir İngilis və Müasir İngilis dilidir. 14-cü əsrdə yaşamış ingilis şairi Geoffrey Chaucer məşhur 'The Canterbury Tales' əsəri ilə orta ingiliscənin standartlaşdırılmasında mühüm rol oynamışdır. Əsər Kenterberri şəhərinə səfər edən müxtəlif insanların dilindən söylənilən şeirlər toplusu şəklində yazılıb. Sonrakı dövrlər orta ingilis dili inkişaf edərək müasir ingilis dilinə çevrilmişdir.

**Açar sözlər : dil öyrənmək danışmaq müasir rəsmi istifadə olunmaq**

Müasir dövrümüzdə ingilis dili siyasi danışıqlar və biznes dilinə çevrilmişdir. Həttda elmi və tibbi araşdırmalar da ingilis dilində aparılır. Beynəlxalq razılaşmalara əsasən təyyarələrdə işləyən bələdçilər belə ingilis dilini bilməlidirlər. İngilis dilinin tədrisinin əsas məqsədi şagird və tələbələrin kommunikativ nitq bacarıqlarının və nitq mədəniyyətinin formalaşdırılması və inkişafı, xarici dilin praktik cəhətdən öyrədilməsidir. " Əgər ingilis dilinin kommunikativ nöqteyi-nəzərdən formalaşdırılmasını qarşımıza əsas məqsəd kimi qoysaq, bu əsas məqsəd baxımından bütün digər məqsədlər (tərbiyəedici, təhsilverici və inkişafetdirici) də həyata keçirilir. Bu baxımdan təlimin son məqsədi xarici dil mühitində sərbəst danışıq vərdişi əldə etmək və müxtəlif situasiyalarda lazımi reaksiya göstərmək və mövzuya uğun cavab vermək bacarığını aşılamaqdır. Tədris edilən xarici dil fənninin məqsəd və vəzifələrini reallaşdırmaq üçün məzmun xətləri belə müəyyənləşdirilmişdir: dinləmə

və anlama, danışma, oxu, yazı.**” (2, 53) Bu** məzmun xətlərinə uyğun olaraq fəaliyyət tədqiqetmə və tətbiqetmə, təsviretmə, əlaqələndirmə və ünsiyyət, dəyərləndirmə və yaradıcı tətbiqetmə kimi fəaliyyət istiqamətləri nəzərdə tutulur. Bu fəaliyyət istiqamətlərinin əhatə etdiyi sahələr dil öyrənmənin əsasını təşkil edi. Təlim prosesində aşağıdakı məsələlərə xüsusi diqqət yetirilməlidir:

• hər bir tələbənin dili praktik cəhətdən mənimsəməsi üçün əlverişli şərait yaratmaq;

• hər kəsə öz fəallığını, yaradıcılığını göstərməyə imkan verən tədris üsullarını seçmək;

• dil mühiti yaratmaq;

• təlim nəticələrinə uyğun düzgün istiqamət seçmək

; • standartlara əsasən mövzunu müəyyən etmək

• standartlara uyğun təlim məqsədləri müəyyən etmək;

• tələbənin maraq və ehtiyaclarını nəzərə alaraq təlim mühiti yaratmaq. Bütün bunlarla yanaşı, müasir müəllim yüksək səviyyədə informasiyaya malik olmalıdır. İngilis dilinin tədrisi prosesində tələbənin idrak fəaliyyətini intensivləşdirmək üçün müxtəlif metodlardan da istifadə etmək lazımdır.İnteractiv metodundan istifadə etmək tələbələrdə təlim prosesinə maraq oyadır. Bu zaman interaktiv tədris metodlarından, internet resurslarından istifadə edilməsi yaxşı nəticə verir. Müasir cəmiyyətdə tədrisin yeni forma, metod və üsullarının axtarışına çox diqqət yetirilir. Müasir məktəblərə, kolleclərə, alı məktəblərə elə tədris metodları lazımdır ki, onlar yüksək keyfiyyətli tədrisi təmin etməklə yanaşı, həm də insanın şəxsiyyətini, onun yaradıcılıq potensialını üzə çıxara bilsin. Həmçinin müasir təhsil insana müasir həyata uyğunlaşmağı, vəziyyətə uyğun tez və düzgün qərarlar qəbul etməyi, rəqabət qabiliyyətli olmağı öyrətməli, sosial dəyişikliyin situasiyalarını fəal şəkildə mənimsətməlidir.

Hal-hazırda kompüter xarici dil təhsilində texnologiyaların istifadəsini şərtləndirən mühüm bir amildir. “Müxtəlif veb saytlar mövzulara uyğun olaraq hər səviyyədə dil öyrənmə və tədrislə bağlı fəaliyyətlər təklif edir. Veb saytlar tərəfindən təqdim olunan bu audio-vizual fəaliyyətlər sayəsində hər hansı bir insan xarici dili effektiv və daimi öyrənə bilər**”(3, 46)**

Çox insan utandığı üçün ingilis dilində danışmaqdan çəkinir. Ya da ki, səhv edəcəyi üçün ingilis dilində danışmır. Lakin başa düşmək lazımdır ki, ingilis dili öyrənməyinizdə əsas məqsəd həmin dili bildiyinizi insanlara sübut etməkdir. Bunun üçün də danışmaq lazımdır. Yəqin razılaşarsız ki, ingilis dilini öyrənib lakin həmin dildə danışmamaq sizi yalnız inkişafdan geri salacaq. Əgər bir dəfə danışmağa cəhd etsəz, ondan sonra bütün ifadələr ardı ilə gələcək, fikirləriniz açılacaq

Bildiyimiz kimi İngilis dili ünsiyyət dili olaraq beynəlxalq dil statusunu saxlamaqda davam edir. Ümumi təhsil məktəblərində, ali təhsil ocaqlarında ingilis dilinin tədrisi şagirdlərin və tələbələrin təfəkkür bacarıqlarının formalaşmasına əsaslanan yeni məzmun kəsb etmişdir.. Globallaşan dünyamızda məktəbi və

universiteti bitirən hər bir gəncin uğur qazanmasında ingilis dilində tənqidi düşüncəyə malik olmaq vacib şərtdir. Tənqidi düşünmə vacib və zəruri bir bacarıq kimi şagirdlərin və tələbələrin gələcək təhsilini davam etdirməsində düzgün seçim etmək, zehni və məntiqi sualların öhdəsindən gəlməyə kömək edəcək amildir,eyni zamanda milli dəyərləri, innovasiyaları və təhsil irəliləyişlərini qiymətləndirmək üçün istifadə edilə bilər. "Qlobal problemlərin həllində şagirdlərin və tələbələrin ingilis dilində tənqidi təfəkkür və idraki düşüncə əsaslı bilik, bacarıq və vərdişlərə sahib olması strateji hədəflərdən biri hesab olunur. Tənqidi düşüncə, hər hansı bir fəaliyyəti yerinə yetirmək barədə qərar verməyə yönəlmiş aydın, əsaslı, əks etdirən düşüncədir**".(4, S.Süleymanova, Azərbaycan məktəbi | Azerbaijan Journal of Educational Studies | 2022. №2)**

Burada sadəcə mövzuları, faktları əzbərləmək, eşitdiklərinizi və ya oxuduqlarınızı qəbul etməklə yanaşı, mövzuda əksolunanlara tənqidi yanaşmaq və fərziyyələrə necə nail olmaq yollarını əhatə edir**. (5, 67).**

Aparılmış tədqiqatlar göstərir ki, dil öyrənənlərin tənqidi düşünmə bacarıqlar istənilən səviyyədə deyil. Bu problemlərin yaranmasına təsir edən əsas səbəblərə ingilis dilində uyğun motivasiya və mövzu seçiminin olmaması, sərbəst təlim mühitinin təşkilində yol verilən nöqsanlar, dialoqların aparılmaması, eyni zamanda şagird və tələbələrin sosial bacarıqlarının, fərdi qabiliyyətlərinin aşağı səviyyədə olması daxildir. Digər mövcud problem tədris proqramında tənqidi təfəkkürü formalaşdıran mövzulara az yer verilməsidir. Müəllimlərin üzləşdiyi əsas çətinliklər isə onların tənqidi təfəkkürün formalaşdırılmasında mühüm rolu olan təlim texnologiyaları haqqında təcrübəyə malik olmaması və müvafiq təlimlərdə iştirak etməməsi ilə bağlıdır. Ona görə də təhsilverənlər şagird və tələbələrin sərbəst nitqini inkişaf etdirməyə təsir göstərən və onların düşünməsini təmin edən metodlardan istifadəyə əhəmiyyət vermirlər. Bu məsələyə diqqət artırılmalıdır.

"İngilis dilinin tədrisində dilin bütün aspektləri nızərə alınmalıdır. Bu aspektlərdən biri də idiomlardır. İdiomlar dil öyrənməyin vacib bir hissəsidir və dilin səriştəli öyrənilməsində özünü göstərir. İngilis dilində idiomlar tələbələr tərəfindən mənimsənilməli olan mədəni elementlərin bir hissəsidir. İdiomatik ifadələr kimi məcazi dil haqqında aydın bir anlayış inkişaf etdirərək tələbələr əsas söz səviyyəsindən kənarda məcazi və leksik mənalar olan mətnləri daha mükkəməl dərk edə bilərlər. İdiomlar gündəlik danışıq dilində istifadə olunan ifadələrdir. Onlar adətən məcazi məna daşıyır və danışıq dilini zənginləşdirirlər. İdiomları sözbəsöz tərcümə etdikdə onlar məna kəsb etmirlər. İdiomların hər birinin mənasını cümlələrlə daha asan öyrənmək mümkündür." **(6, 23-24)**

Məsələn, "climb the walls "- to be uneasy or restless; syn: go bananas bu idiomun mənası "incitmək, narahatlıq yaratmaq" deməkdir. Amma onlar bu ifadənin mənasını "divara dırmaşmaq, banan ağacına çıxmaq " kimi başa düşürlər. Başqa bir misal "cross ( one's) fingures – to hope for luck" yəni şans diləmək deməkdir. Lakin tələbələr bu ifadəni " bir adamın sözün əsl mənasında barmaqlarından keçmək" kimi

anlayır. Bundan əlavə, hətta idiomlar İngilis lüğətinin ən çətin və maraqlı bir hissəsi kimi nəzərdə tutulur. Mədəniyyət idiomların təfsirində mühüm rol oynayır. Amerikada bir kəs öz çılğın hərəkətinə görə günahladırılırsa "off the wall", "over the deep end" kimi ifadələr işlənir, yəni " divardan və ya dərin ucdan baxmaq".

İdiomları anlamaq ingilis dili öyrənənlər üçün çox vaxt problemdir. İdiomatik ifadələri yeniliklərlə öyrətmək üçün müəllim aşağıdakı strategiyaları tətbiq edə bilər. (1) İnşa yazılarında deyimlərdən istifadə etmək, (2) deyimlərdən istifadə edərək söhbətlər qurmaq, (3) orjinal materiallardan istifadə etmək, (4) problem həll etmə məşqlərindən istifadə etmək və (5) deyim afişalarının hazırlanması. Bunlar idiomları öyrətmək və nəzərdən keçirtmək üçün faydalı üsullardır.

İngilis dilinin ikinci xarici dil kimi tədrisi təbii ki, Elm və Təhsil Nazirliyinin nəzərdə tutduğu proqram əsasında aparılır. Bu gün Azərbaycanın dünyanın müxtəlif ölkələri ilə biznes və təhsil əlaqələri geniş vüsət almışdır. İstənilən sahədə uğur qazanmaq istəyən hər bir azərbaycanlı bir və ya bir neçə xarici dil bilməli, aşağıdakı bacarıqlara malik olmalıdır:

• digər xarici dilləri müstəqil şəkildə öyrənmək;
• müxtəlif xarici dilli vətəndaşlarla birgə fəaliyyət göstərmək;
• fərqli kontekstləri bir neçə dildə müqayisə etmək
; • biliyini müstəqil şəkildə dərinləşdirmək.

İngilis dilinin (ikinci xarici dil kimi) tədrisi zamanı aşağıdakı prinsiplər əsas götürülməlidir: a) Linqvistik prinsiplər. Bu prinsipdə şagirdlərin şifahi və yazılı nitqinin inkişaf etdirilməsi, onların ilkin oxu və yazı bacarıqlarının təkmilləşdirilməsi nəzərdə tutulur. b) Kommunikativ prinsiplər. İkinci xarici dil üzrə məzmun standartları müəyyənləşdirilərkən aşağıdakı fəaliyyət istiqamətləri nəzərə alınmışdır:

• Ünsiyyət
• Əməkdaşlıq
• Problem həlli

Tətbiqetmə c) Sosial-mədəni prinsiplər. Müxtəlif mədəniyyətləri öyrənmək və geniş dünyagörüşə malik olmaq ikinci xarici dil kimi ingilis dilinin tədrisində əsas yer tutur. ç) Təlimin təşkili prinsipləri. Təlim prosesində müəllim aşağıdakı məsələlərə diqqət yetirməlidir:

• dil mühiti yaratmaq;
• təlim nəticələrinə uyğun düzgün istiqamət götürmək;
• standartlara əsasən mövzunu müəyyən etmək;
• standartlara uyğun təlim məqsədləri müəyyən etmək;
• şagirdin maraq və ehtiyaclarını nəzərə alaraq təlim mühiti yaratmaq
• müxtəlif motivasiyadan, yaradıcı simvollardan istifadə etmək
; • yaradıcı xarakterli ev tapşırıqları vermək;
• şagird fəaliyyətinin qiymətləndirilməsində diaqnostik, formativ, summativ, eləcə də özünüqiymətləndirmə vasitələrindən istifadə etmək;

- şagird portfoliosunu yaratmaq;
- vaxtdan səmərəli istifadə etmək;
- fonetika, leksika və qrammatika, lüğətdən istifadəni məzmun daxilində mənimsətmək
- gündəlik (işlək) ifadə və nitq modellərindən istifadə etmək;
- İKT və audio-vizual vasitələrdən təlim məqsədinə uyğun istifadə etmək;
- elektron təqdimatlara geniş yer vermək;
- kollektiv, qruplarla, cütlərlə və fərdi iş formalarını təlim məqsədinə uyğun tətbiq etmək

**Резюме**

**Зумруд Мамедова**
**Хатира Мусаева**

**« ВЖНОСТЬ АНГЛИЙСКОГО ЯЗЫКА И ЕГО РОЛЬ В ОБРАЗОВАНИИ»**

**Ключевые слова: язык изучать говорить современный официальный использовать**

Роль английского языка в современном мире действительно велика. Его изучают в школах, ВУЗах, на профильных курсах английского онлайн и офлайн. Благодаря прогрессу в сфере цифровых технологий каждый человек может изучать международный язык, не выходя из дома. И такой подход в современном обществе считается не просто нормой, а необходимостью. Сферы и направления в мире, в которых английский язык является единым для общения:Мир науки — научные конференции и обсуждение глобальных мировых проблем, обмен опытом и важной научной информацией, написание научных работ и трудов; Сфера спорта — все международные спортивные соревнования (Олимпийские игры, международные старты, чемпионаты);Путешествия — невозможно знать языки всех стран и народов, но достаточно знать английский язык, чтобы без проблем путешествовать по всему миру и общаться с представителями других народов; Сфера образования — получить престижное образование в лучших учебных учреждениях Европы и Америки.Сфера кинематографа и литературы — английский облегчает просмотр фильмов и чтение классической литературы в оригинале.

**Resume**

**ZUMRUD MAMMADOVA**
**KHATIRA MUSAYEVA**
**VAFA JAFAROVA**

**« THE IMPORTANCE OF TEACHING ENGLISH AND ITS ROLE IN EDUCATION»**

**Key words : language to learn to speak modern official to use**

English is understood by 2 billion speakers across the world. But it's not just the most common language: it's the most important one to learn. English is not just the most common language: it's also the most important one for you to learn for many reasons! Learning a foreign language enhances your cognitive and analytical abilities. Learning a new language can be difficult and it involves a lot of mental exercises. Learning English is not only useful, but it also gives a lot of satisfaction and making progress will make you feel great. The role of English in education includes the following aspects:Access to education and jobs: Learning English provides access to education and employment opportunities. Promoting social mobility: Proficiency in English can help individuals move up in society.Connecting people: English serves as a global language, facilitating communication and connections across culturesDriving growth and development: In developing and emerging economies, English is crucial for stability, employability, and prosperity.

**Istifadə olunan ədəbiyyat**

1. Vsevolod Ovçinnikov"Palıd kökləri"(İngiltərə və ingilislər haqqında), Moskva 1984

2. Hall, J. K. ve Verplaetse, L. S. (2000). Second and foreign language learning through clas-sroom interaction. Mahwah, NJ: Erlbaum

3.İsmayılova, A. (2014). Xarici dilin tədrisi metodikasinin bəzi istiqamətləri. Azərbaycan məktəbi, 5, 91-93.

Xarici dillərin tədrisinin aktual problemləri mövzusunda Respublika elmi konfransının tezisləri (2018). (06-07 dekabr 2018-ci il, Azərbaycan). ADU.

https://www.acarindex.com/dosyalar/makale/acarindex-1423874886.pdf

4."S.Süleymanova İngilis dilinin tədrisində tənqidi təfəkkürün inkişaf etdirilməsi yolları"( məqalə, Azərbaycan məktəbi | Azerbaijan Journal of Educational Studies | 2022. №2

5.Dewey & Bento, 2009; Karakuzular, 2013; Kow, 2016.

Shapely, L.N. (n. d.) What is the Meaning of Idiomatic Expressions Language?Retrieved from http:\\ www.ehow.com \about-6509169_meaning–idiomaticexpressions-language_html. 6. 6.Straksine, M.(2009). 6.Analysis of Idioms Translation and Strategies from English into Lithuanian. Studies about Language,13-20. TEACHING IDIOMATIC EXPRESSIONS IN ENGLISH IN .

**Rəyçi f.f.d, dosent T.T.Süleymanova**